**Hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, qabaqcıl tələblər əsasında təhsil almasının, ölkəmiz üçün layiqli vətəndaş olaraq formalaşmasının təmin edilməsi uşaqlar barəsində həyata keçirilən dövlət siyasətinin başlıca istiqamətlərindəndir.**

**Uşaqların, o cümlədən çətin həyat şəraitində olan uşaqların inkişafı, onların sui-istifadə, istismar, zorakılıq hallarından müdafiəsi, mənafelərinin üstünlüyü prinsipinin nəzərə alınması dövlətimiz tərəfindən həyata keçirilən tədbirlərdə, sosial proqramlarda mühüm yer tutur.**

# Uşaq hüquqlarının təmin edilməsi Ombudsmanın əsas fəaliyyət istiqamətlərindən biridir






Sosial baxımdan həssas əhali qruplarından biri kimi uşaqların daim diqqət və qayğıya ehtiyacı vardır. Xüsusi müdafiəyə ehtiyacı olduqları əsas götürülərək XX əsrin əvvəllərindən başlayaraq beynəlxalq ictimaiyyət uşaqların hüquqlarının müdafiəsinə diqqəti artırmışdır. 1924-cü il 26 sentyabr tarixində Millətlər Cəmiyyətinin Assambleyası tərəfindən Uşaq Hüquqları üzrə Cenevrə Bəyannaməsinin, daha sonra 1959-cu il 20 noyabr tarixində Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası tərəfindən Uşaq Hüquqları Bəyannaməsinin qəbul edilməsi uşaqların hüquqlarının müdafiəsinə münasibətdə xüsusi yanaşmanın formalaşdırılması istiqamətində atılmış ilk addımlardır. Bu sahədə göstərilən səylər nəticəsində uşaqların hüquqlarının hərtərəfli əks olunduğu və dövlətlərin üzərinə icrası məcburi olan öhdəliklər qoyan beynəlxalq sənədin qəbul edilməsi zərurəti yaranmışdır.

1989-cu il 20 noyabr tarixində BMT-nin Baş Assambleyası tərəfindən uşaqların hüquqlarını təsbit edən, onların yaşaması və inkişafı üçün zəruri olan standartları müəyyənləşdirən beynəlxalq müqavilə - "Uşaq hüquqları haqqında" Konvensiya qəbul olunmuşdur.

Beləliklə, bu il Uşaq Hüquqları üzrə Cenevrə Bəyannaməsinin qəbul edilməsindən 100 il, BMT-nin Uşaq Hüquqları Bəyannaməsinin qəbul edilməsindən 65 il, BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının qəbul olunmasından isə 35 il ötür.

1992-ci ildə Azərbaycan Respublikası tərəfindən bu Konvensiya, 2002-ci ildə isə Konvensiyaya əlavə olaraq qəbul edilmiş 2000-ci il 25 may tarixli uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair və uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakültativ Protokolları ratifikasiya edilmişdir.

Ötən dövr ərzində ölkəmizdə uşaq hüquqlarının müdafiəsi sahəsində həyata keçirilmiş genişmiqyaslı islahatlar nəticəsində milli qanunvericilik müasir dövrün tələblərinə uyğun təkmilləşdirilmiş, institusional mexanizmlər yaradılmış, bir sıra mühüm nailiyyətlər əldə edilmişdir.

"Uşaq hüquqları haqqında" 1998-ci il 19 may tarixli Azərbaycan Respublikasının Qanunu bu sahədə mövcud münasibətləri tənzim edən əsas normativ hüquqi akt olaraq uşaqların hüquq və azadlıqlarını, habelə bu hüquqların həyata keçirilməsi istiqamətində dövlətin vəzifələrini özündə ehtiva edir.

Azərbaycanda uşaqların sağlam, firavan mühitdə böyüməsi, savadlı, vətənpərvər şəxsiyyət kimi formalaşması, yüksək qayğı və sevgi ilə əhatə olunması, habelə hüquqlarının yüksək səviyyədə qorunmasına xidmət edən dövlət siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur və bu siyasi xətt ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, ölkə başçısının rəhbərliyi ilə müxtəlif sahələrdə aparılan islahatlarla yanaşı, uşaqların rifah halının daha da yüksəldilməsi, onların hərtərəfli inkişafı, layiqli həyat səviyyəsinin təmin edilməsi daim diqqətdə saxlanılır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın uşaqların inkişafı, onların hər zaman diqqət və qayğı ilə əhatə olunması, yüksək standartlara cavab verən xidmətlərdən istifadə etmələrində misilsiz xidmətləri var. Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən respublikada təhsil, səhiyyə, sosial xidmət müəssisələri inşa və ya əsaslı təmir olunaraq vətəndaşların istifadəsinə verilir. Eyni zamanda çətin həyat şəraitində olan, o cümlədən əlilliyi müəyyən edilmiş, valideyn himayəsindən məhrum olmuş uşaqların cəmiyyətə inteqrasiya olunmaları, bərabər imkanlardan faydalanmaları istiqamətində davamlı sosial layihələr icra edilir. Mehriban xanım Əliyevanın xüsusi qayğıya ehtiyacı olan uşaqlarla, o cümlədən ölkəmizin bütövlüyü naminə canlarından keçən qəhrəman şəhidlərimizin övladları ilə mütəmadi olaraq görüşməsi, onların qayğıları ilə maraqlanması cəmiyyətdə böyük rəğbət hissi ilə qarşılanır.

Qeyd olunduğu kimi, Azərbaycanda uşaq hüquqlarının müdafiəsi sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir.

2023-cü ildə "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa edilən dəyişikliklər nəticəsində Müvəkkilə "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi səlahiyyətinin də verilməsi və bu məqsədlə cari ildə təsisatda monitorinq qrupunun yaradılması qeyd olunan istiqamətdə atılan addımlardır.

Uşaq hüquqlarının etibarlı müdafiəsi Ombudsmanın fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsi üzrə Monitorinq Qrupunun yaradılması bu sahədə səmərəli fəaliyyətin təşkili baxımından mühüm əhəmiyyətə malikdir.

Müvəkkilin Aparatı və regional mərkəzləri tərəfindən uşaq hüquq pozuntularına dair Ombudsmana ünvanlanmış müraciətlər araşdırılır, mövcud problemlərin həlli üzrə qanunamüvafiq tədbirlər görülür. Onu da qeyd etmək lazımdır ki, təsisata, o cümlədən 24 saat ərzində fəaliyyət göstərən 916 Çağrı Mərkəzinə daxil olan müraciətlər arasında birbaşa uşaqların özləri tərəfindən edilən müraciətlər də yer alır.

Ombudsman Aparatına daxil olan müraciətlərlə yanaşı, mediada, o cümlədən sosial şəbəkələrdə uşaqların hüquqlarının pozulması ilə bağlı yayılan məlumatlar da Müvəkkil tərəfindən dərhal nəzarətə götürülür, aidiyyəti dövlət qurumlarına sorğular ünvanlanır, zəruri hallarda hüquqi məsləhətlər verilir.

Ombudsmanın fəaliyyətində uşaq hüquqlarının müdafiəsi ilə bağlı milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə təkliflərin irəli sürülməsi əsas yerlərdən birini tutur.

Yeri gəlmişkən, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının yeni qanununun və digər əlaqəli normativ hüquqi aktların layihələrinə Ombudsman tərəfindən rəy və təkliflər hazırlanaraq müvafiq quruma təqdim edilmişdir. Həmin təkliflərdə müxtəlif kateqoriyadan olan uşaqların hüquqlarının müdafiəsinə yönəlmiş bir sıra məsələlər əks olunmuşdur.

Ombudsman ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzələrində erkən evlilik hallarının aradan qaldırılması məqsədilə bir sıra təkliflər, o cümlədən Azərbaycan Respublikası Ailə Məcəlləsinin 10.2-ci maddəsinin (Üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər) bu məcəllədən çıxarılması təklifini irəli sürmüşdür.

Ombudsmanın irəli sürdüyü təkliflər də nəzərə alınmaqla, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Erkən evlilik və qohum nikahları ilə bağlı mövcud problemlərin qarşısının alınması məqsədinə xidmət edən bu Qanun 2025-ci il iyulun 1-dən qüvvəyə minəcəkdir.

Ombudsman Aparatı tərəfindən aparılan araşdırmalara əsasən, mediada yetkinlik yaşına çatmayan şəxslərlə bağlı məlumatların, materialların media subyektləri və jurnalistlər tərəfindən yayılması zamanı qanunvericiliyin tələblərinin pozulması halları müşahidə edildiyindən bu kimi hallarla əlaqədar müvafiq dövlət orqanlarına müraciətlər edilmiş, həmin qurumlar tərəfindən zəruri tədbirlərin görülməsi təmin olunmuşdur. Bununla yanaşı, Ombudsman tərəfindən mediada uşaq hüquqlarının pozulması halları ilə bağlı media subyektlərinə və jurnalistlərə ünvanlanmış açıq müraciətdə onlara peşə fəaliyyətlərini həyata keçirdikləri zaman uşaqların mənafelərini üstün tutmaq və uşaqlarla bağlı məlumatların yayılmasında həssas yanaşma nümayiş etdirmək tövsiyə olunmuşdur.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların hüquqlarının müdafiəsi, onların sosial inteqrasiyasına və cəmiyyətin həyatında iştirakına dəstək verilməsinin vacibliyini daim önə çəkən Ombudsman həmin uşaqlarla mütəmadi görüşlər keçirir, onların problemləri ilə maraqlanır, hüquqlarının təmini istiqamətində zəruri addımları atır.

Cari ildə Ombudsmanın "Birgə və Sağlam" İctimai Birliyinin nümayəndələrinin iştirakı ilə autizmli şəxslərlə təşkil olunmuş görüşündə autizm spektr pozuntusu olan şəxslərə dövlət qayğısı haqqında xüsusi normativ hüquqi aktın və məqsədli dövlət proqramının qəbul edilməsinin, onlar üçün müvafiq təhsil müəssisələri və reabilitasiya mərkəzlərinin genişləndirilməsinin, ixtisaslı kadr hazırlığının gücləndirilməsinin və maarifləndirmə tədbirlərinin keçirilməsinin əhəmiyyəti vurğulanmışdır.

Ombudsman Aparatı tərəfindən "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi ilə əməkdaşlıqda 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Quba, Qusar, Xaçmaz və Siyəzən rayonlarında yaşayan Vətən müharibəsi şəhidlərinin övladları üçün Quba rayonunda bayram tədbiri təşkil edilmişdir.

Suriya Ərəb Respublikasından Azərbaycan Respublikası vətəndaşlarının, o cümlədən uşaqların repatriasiyası, onların hüquqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsi məqsədilə Ombudsman tərəfindən səlahiyyətli dövlət qurumları ilə əlaqələndirilmiş şəkildə fəaliyyət davam etdirilmişdir. Ombudsmanın nümayəndələri tərəfindən həmin repatriantlarla görüşlər keçirilmiş, onların hüquqlarının təmini vəziyyəti yerində araşdırılmışdır.

Ombudsman Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin yetkinlik yaşına çatmayanlar üçün Tərbiyə Müəssisəsində onların hüquqlarını diqqətdə saxlayır, həmin uşaqlarla görüşlərində belə şəxslərin cəmiyyətə reinteqrasiyası ilə bağlı müvafiq tövsiyələr verir.

Bu xüsusda qeyd etmək lazımdır ki, Ombudsmanın təşəbbüsü əsasında Tərbiyə Müəssisəsində islah olunan yetkinlik yaşına çatmayanların paytaxtda yerləşən tarixi-mədəniyyət abidələrinə, istirahət və ictimai iaşə obyektlərinə səfəri təşkil olunmuşdur. Ombudsmanın Penitensiar Xidmətlə əməkdaşlığı çərçivəsində keçirilən bu kimi tədbirlər uşaqların mənəvi inkişafına, onların islah olunmalarına müsbət təsir göstərir.

Ombudsman uşaq hüquqlarının müdafiəsi sahəsində BMT-nin Uşaq Fondunun Azərbaycandakı nümayəndəliyi, təsisatın üzv olduğu Avropa Uşaq Ombudsmanları Şəbəkəsi və digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir.

Ombudsman tərəfindən uşaqların hüquqlarının təbliğinə və onların iştirakına xüsusi önəm verildiyindən "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının 2024-cü il üzrə hüquqi maarifləndirmə sahəsində Tədbirlər Planı"nın icrası məqsədilə təsisat tərəfindən uşaqlar və onlarla müntəzəm təmasda olan şəxslər üçün maarifləndirmə tədbirləri keçirilib.

Hər il 10 Dekabr - Beynəlxalq İnsan Hüquqları Günü münasibətilə uşaq rəsm müsabiqəsi keçirilir, uşaqların, o cümlədən çətin həyat şəraitində olan uşaqların iştirakı təmin edilir. Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi çərçivəsində cari ildə keçirilən müsabiqə "İqlim dəyişikliyi və insan hüquqları" mövzusuna həsr olunmuşdur.

Ənənəvi olaraq bu il də BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının qəbul olunmasının 35-ci ildönümü ərəfəsində Ombudsman tərəfindən 20 oktyabr - 20 noyabr tarixləri ölkədə "Uşaq Hüquqları Aylığı" elan edilmişdir. Aylıq uşaq hüquqlarının müdafiəsi və təbliği sahəsində fəaliyyətin gücləndirilməsi, uşaqlara diqqət və qayğının təşviqi, bu sahədə məlumatlılığın artırılması məqsədlərinə xidmət edir. Aylıq çərçivəsində Ombudsman dövlət və yerli özünüidarə orqanları, vətəndaş cəmiyyəti institutları və digər aidiyyəti qurumlara müraciət ünvanlayır və aylığa qoşulmaqla uşaq hüquqlarının daha etibarlı müdafiəsinə yönəlmiş müxtəlif tədbirlər həyata keçirilir.

**20 Noyabr**

**Ümumdünya Uşaqlar Günüdür**

Əvvəlki illərin təcrübəsi göstərir ki, Aylıq aidiyyəti qurumlar arasında geniş maraq doğurur və bu istiqamətdə görülən tədbirlərin miqyası getdikcə artır.

Aylıq çərçivəsində Müvəkkilin Aparatı və regional mərkəzləri tərəfindən maarifləndirmə tədbirləri təşkil olunmuş, habelə təşəbbüsümüzə qoşulan qurumlarla birgə tədbirlər həyata keçirilmişdir. Bununla yanaşı, dövlət uşaq müəssisələrində Ombudsmanın Milli Preventiv Qrupunun üzvlərinin də iştirakı ilə keçirilən başçəkmələrdə saxlanma şəraiti araşdırılmış, uşaqlarla rəftarın öyrənilməsi məqsədilə onlarla fərdi və konfidensial qaydada görüşlər keçirilmiş, habelə uşaq hüquqlarını əhatə edən mövzular üzrə maarifləndirici söhbətlər aparılmışdır.

44 gün davam edən Vətən müharibəsində əldə etdiyimiz şanlı qələbədən sonra işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuğa başlanılmış, yeni qəsəbələr salınır, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışının təmin edilməsi istiqamətində dövlət tərəfindən zəruri addımlar atılır. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən məcburi köçkünlərin doğma yurdlarına qayıdışı böyük sürətlə davam etdirilir. Əhalinin dayanıqlı məskunlaşması və davamlı iqtisadi fəallığının artırılması, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün məqsədyönlü və genişmiqyaslı layihələr həyata keçirilir.

Dövlətimiz tərəfindən doğma torpaqlarına geri qayıdan ailələr, onların övladları üçün bütün zəruri imkanlar yaradılır, xidmətlərə əlçatanlılığın təmini üzrə müvafiq işlər görülür, müasir tələblərə cavab verən təhsil, səhiyyə və digər müəssisələr inşa edilərək vətəndaşların istifadəsinə verilir.

Təəssüf hissi ilə bildirmək istərdim ki, Ermənistanın uzun müddət işğal altında saxladığı ərazilərimizdə törətdiyi sülh və insanlıq əleyhinə, həmçinin müharibə cinayətləri, eləcə də basdırdığı minalar uşaqlar da daxil olmaqla mülki əhalinin həyat və sağlamlığına, onların təhlükəsiz geri qayıdışına ciddi əngəl törədir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-dən çox vətəndaşımız minalardan zərər çəkmişdir ki, onlardan 358 nəfəri uşaqlardır. Hesab edirəm ki, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar tərəfindən bu istiqamətdə qətiyyətli addımlar atılmalıdır.

Bu il "Uşaq Hüquqları Aylığı" çərçivəsində Ombudsman Aparatının əməkdaşları tərəfindən ilk dəfə olaraq işğaldan azad edilmiş ərazilərimizdə yerləşən təhsil müəssisələrində maarifləndirici görüşlər keçirilmişdir. Şuşa şəhər 1 nömrəli, Füzuli şəhər Mirzə Uluqbəy adına 1 nömrəli, Cəbrayıl şəhər Mehdi Mehdizadə adına, Zəngilan rayon Ağalı kənd tam orta məktəblərində şagird və müəllimlərin iştirakı ilə keçirilən maarifləndirmə tədbirlərindən ümumilikdə 240 nəfər şagird, 62 nəfər pedaqoji heyət faydalanmışdır. Tədbirlərdə Müvəkkilin təşəbbüsü ilə Aylıq çərçivəsində BMT-nin Uşaq Fondunun Azərbaycandakı Nümayəndəliyi ilə birgə əməkdaşlıqla hazırlanmış "Uşaq hüquqları haqqında" Konvensiyanın uşaqlar üçün anlaşılan dildə nəşrləri paylanılmışdır.

Səfər çərçivəsində, həmçinin Zəngilan rayon Ağalı kənd körpələr evi-uşaq bağçasında yaradılmış şərait, ümumilikdə uşaq hüquqlarının təmini vəziyyəti araşdırılmış, müəssisənin işçi heyəti ilə fəaliyyətlə bağlı hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Şanlı Zəfər dövrünü yaşayan müstəqil Azərbaycan Respublikasında hər bir uşaq öz üzərində dövlət qayğısını hiss edir. Uşaqların sahib olduqları hüquqların səmərəli müdafiəsi naminə cəmiyyətin hər bir üzvünün öz gücünü səfərbər etməsi, uşaqların xoşbəxt gələcəyi naminə qurumlararası əməkdaşlığın gücləndirilməsi və keçirilən tədbirlərdə uşaqların iştirakının təmin edilməsi mühüm əhəmiyyət kəsb edir.

İnanıram ki, müvafiq qurumlarla və ictimaiyyətlə birgə əməkdaşlıqla həyata keçirilən tədbirlər uşaq hüquqlarının təmini vəziyyətinin daim diqqət mərkəzində saxlanılmasına, uşaqların rifah halının yüksəldilməsinə töhfə verəcəkdir.

**Səbinə ƏLİYEVA,**
**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman),**
**hüquq üzrə fəlsəfə doktoru.**